# «İsra» kurslarında psixoloji seminar

İnkişaf etməkdə olan ölkəmizə yüksək ixtisaslı kadrların, mütəxəssislərin daha çox lazım olduğu indiki dövrdə onların hazırlanmasının ilkin mərhələsi ali məktəblərə qədər olan mərhələdir. «İsra» kurslarının bu sahədə 7 ildir ki fəaliyyət göstərməsi bu nöqteyi-nəzərdən xeyli təcrübə toplamasına imkan vermişdir. Hər ilə əvvəlki ildən fərqli bir yeniliklə qədəm qoyan «İsra» kursları şagirdləri ali məktəblərə hazırlamaqla yanaşı onların savadlı, vətənini, millətini sevən vətəndaş kimi yetişməsinə də bir neçə ildir ki öz töhfələrini verməkdədir.

Isra kurslarının əsas fəaliyyət sahəsi abituriyent hazırlığıdır. Hər bir abituriyentin əsas məqsədi isə şübhəsiz ki, daha üstün ali məktəbin tələbəsi olmaqdır. Bunun üçün yüksək peşəkarlığı olan müəllimlərdən dərs almaq, keyfiyyətli dərsliklərdən istifadə etmək məsələnin yalnız görünən tərəfidir. Bu yolda daha yüksək nəticələrə çatmaq üçün isə məsələnin bir sıra görünməyən tərəfləri də var. Bunların ən əsasları ətrafdakı ictimai psixoloji təzyiq, imtahanlar yaxınlaşdıqca üzləşdikləri psixoloji stres, imtahanda lazımi nəticə toplaya bilməmək qorxusu və sairdir. Abituriyentləri və onların valideynlərini düşündürən ən mühüm məsələ imtahanöncəsi hazırlıqdır.

Araşdırmalar göstərir ki, psixoloji cəhətdən imtahana hazır olan şəxslərin nəticələri digərlərinə nisbətən daha yüksək olur. Bu cür abituriyentlərdə imtahanda mexaniki səhvlərə, bildiyini yadından çıxarmaq hallarına, stres nəticəsində yaddaşda tormozlanmaya demək olar ki, rast gəlinmir. Amma valideyn və abituriyentlərin bu dövrdə olan həssaslığından bu sahədə peşəkarlığı olmayan bəzi insanların sui-istifadə halları da son dövrlərdə geniş yayılmışdır.

İmtahana bir neçə gün qalmış bir sıra televiziya proqramları, qəzet məqalələri mövzularını bu məsələyə həsr edir, bəzən də ifrata varaq yanlış məsləhətlər verirlər. Məsələn, imtahandan bir gün əvvəl harada olmalı, nə yeməli, imtahan günü nə geyinməli, yaxud hansı duaları etməli kimi tövsiyələr bəzən abituriyentləri səhv istiqamətlərə yönəldir. Bunlardan ən çox rast gəlinən abituriyentlərə xas hazırlanan reklam xarakterli özəl menyulardır ki, bu da əksər hallarda gənclərin həzm sisteminə mənfi təsir göstərir, mədə-bağırsaq problemləri yaradır. Bəzən, hətta yaddaş gücləndirici dərmanların belə reklamlarına rast gəlirik. Bütün bunları nəzərə alan «İsra» kursları artıq dörd ildir ki, dinləyicilərinə peşəkar psixoloq dəstək verməklə də rayonumuzda bir yeniliyə imza atmışdır. Kursumuz abituriyentlərə psixoloji kömək kimi çox aktual olan bu məsələni bu sahədə xüsusi peşəkarlığı olan, respublikamızın paytaxtında yerləşən Memoriacenter Nevropsixologiya mərkəzi ilə əməkdaşlıq etməklə həll etmişdir.

Personalının böyük əksəriyyətinin Türkiyə və Avropanın nüfuzlu universitetlərinin məzunlarından ibarət olan mərkəz bir neçə ildir ki, bu sahədə uğurla fəaliyyət göstərir. Kurs rəhbərliyinin dəvəti ilə aprel ayının 26-da kursumuzda seminar aparan mərkəzin həkimlərinə müəssisənin rəhbəri və baş həkimi Firdovsi Əliyev başçılıq edirdi. Onlar iki ay öncə dinləyicilərimizlə aparılmış psixoloji testin nəticələrini araşdırmış və dinləyicilərlə və onların valideynləri ilə əyani tanış olmaq və bir sıra məsələləri yerində həll etmək məqsədilə kursumuzun qonağı olmuşlar. Əvvəlcə Firdovsi Əliyev kursumuzun abituriyent bölməsində təhsil alan dinləyicilərin valideynləri ilə görüşdü. O, qeyd etdi ki, övladı universitetə hazırlaşan valideynlər bir çox hallarda övladlarına kömək etmək istədikləri halda özləri də bilmədən onları daha da streslə yükləyirlər. Onları tanıdıqları daha yüksək nəticə toplayan abituriyentlərlə müqayisə edirlər və bu da abituriyentlərə daha da mənfi təsir göstərir. Firdovsi həkim daha sonra bir çox bu kimi məsələlərə toxundu və abituriyentlərin bu həssas dövrlərində onlarla necə davranmaq haqqında, onlara qarşı münasibətdə hansı meyarlara üstünlük vermək haqqında öz peşəkar məsləhətlərini verdi, valideynləri maraqlandıran çoxsaylı suallara peşəkar məsləhətləri ilə cavablandırdı.

Sonra mərkəzin həkimi Qaçay həkim və Günel həkim abituriyentlərimiz ilə görüşüb onlara imtahanqabağı həyəcanı dəf etməyin yolları haqqında öz tövsiyələrini verdilər. Dinləyicilər həkimlərlə ünsiyyətdə çox fəallıq göstərdilər və özlərinin çoxsaylı suallarına aldıqları cavabların onlara gələcəkdə də çox kömək olacağını bildirdilər. Daha uzunmüddətli dəstəyə ehtiyacı olan bir neçə dinləyicimiz isə may ayının 8-də Bakı şəhərinə yollanmışlar. Onlar Memoriacenter Nevropsixologiya Mərkəzindəki seanslarda iştirak etmiş, həkimlərdən müvafiq tövsiyələri almışlar.

İnanırıq ki, bütün bunlar onların imtahanlarda daha mükəmməl nəticə toplamalarına çox kömək edəcək və rayonumuzun təhsil sahəsindəki nailiyyətlərinin daha da yaxşılaşmasına səbəb olacaq.

**Ruslan ZAKİROV,**
**«İsra» kursları tədris işləri üzrə direktor müavini.**

# Müasirləşən və gözəlləşən Qəbələ

(Əvvəli 4-cü səhifədə).

Hazırda digər ünvanlarda da köhnə, yararsız və yöndəmsiz küçələrdə yenidənqurma işləri görülür, Həzi Aslanov, Hüseyn Cavid və Sahil küçələri boyunca qeyri-adi bir canlanma diqqəti çəkir. Bura böyük inşaat meydanını xatırladır. Həvəslə işləyən peşəkar sənətkarlar yolları başdan-başa yenidən qurur, küçələri görkəmli prospektlərə çevirmək üçün yorulmaq bilmədən çalışırlar. Hər kəs bacardığı, gücü catan bir işin qulpundan yapışır. Görülən tikinti-abadlıq işlərində milli memarlıq üslubuna üstünlük verilir, küçə kənarlarındakı köhnə və yararsız hasarlar müasir memarlıq baxımından yenidən tikilir, küçələrin kənarlarındakı yaşayış evlərinin dam örtükləri dəyişdirilir, yararsız qapı və darvazalar yeniləri ilə əvəzlənir. Bu küçələrin hər iki tərəfində piyadaların rahatlığı üçün yeni səkilər qurulacaq, səkilərə üzlük piltələr döşənəcək, ərazidə işıq sistemi quraşdırılacaq, kanalizasiya xətti çəkiləcək, küçələrə asvalt döşənəcək, yaşıllıq zolaqlarının əkilməsinə fikir veriləcək. Bu işlər sistemli şəkildə aparılır, tikintidə hər növ texnikanın gücündən istifadə olunur.

Bəli, bir neçə il bundan əvvəl Qəbələni görənlər indi buradakı yeniliyə, təzəliyə, səliqə-sahmana baxdıqca, sanki möcüzə ilə rastlaşdıqlarını etiraf edirlər.

Prezident cənab İlham Əliyevin Qəbələyə səfərləri hər dəfə rayonun sosial-iqtisadi və mədəni həyatında mühüm keyfiyyət dəyişiklikləri ilə müşayiət olunur. Bu ilin fevralın 28-də Prezident İlham Əliyevin Qəbələyə səfəri də bu qəbildən oldu. Prezident rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə rayonda görülmüş tikinti-abadlıq işlərini yüksək qiymətləndirərək dedi: «Sosial, iqtisadi məsələlər, sənaye, infrastruktur obyektlərinin və mədəniyyət ocaqlarının, tarixi dini abidələrimizin bərpası və tikilməsi— biz bütün bu işləri kompleks şəkildə aparırıq. Qəbələdə bax bu səpkili məsələlər uğurla icra edilir». Dövlət başçısının bu yüksək qiyməti sayəsində ölkəmizin digər rayon və şəhərləri kimi Qəbələ də bu gün sürətli tərəqqi dövrünü yaşamaqdadır.

**Aslan CƏLİLOV.**

# Təqvimdən sətirlər

**20 iyun:** Xalq artisti, bəstəkar, SSRİ Dövlət mükafatı laureatı **Cahangir Cahangirov** (1921—1992) anadan olub. Yaradıcılığının əsas hissəsini xor əsərləri təşkil edir. Vokal-simfonik poema, kantatalar, oratoriyalar, kinofilimlərə musiqi yazıb, konservatoriyada dərs deyib.

**22 iyun:** Məşhur opera müğənisi, Azərbaycan professional vokal məktəbinin banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı **Bülbül (Murtuza Məşədi Rza oğlu Məmmədov)** Şuşada anadan (1897—1961) olmuşdur. Kiçik yaşlarında məlahətli zəngulələri olduğuna görə xalq ona «bülbül» adı verib. Teatr səhnəsində ilk çıxışı 1916-cı ildə Gəncədə M. C. Əmirovun «Seyfəlmülk» operası ilə bağlıdır. Opera və Balet Teatrının solisti olub, müxtəlif partiyaları ifa edib, vokal texnikasını təkmilləşdirmək üçün Milanda iki dəfə dərs alıb. Konservatoriyada dərs deyib. Məlahətli səsi ilə bərabər aktyorluq istedadı da yüksək idi. Xalq mahnılarını, Qərbi Avropa və rus bəstəkarlarının əsərlərini də məharətlə ifa etmişdir.

**23 iyun:** şair, tərcüməçi, Azərbaycanın Əməkdar Mədəniyyət işçisi, Azərbaycan xalq şairi **Nigar Rəfibəyli** (1913—1981) anadan olub.

Rus şairi **Anna Axmatova (Qorenko)** dünyaya gəlib (1989-1966). Yaradıcılıq yolu çətin və ziddiyətli olmuş, tənqid və təqiblərə məruz qalmışdır. Yaradıcılığının zirvəsi «Qəhrəmansız poema» lirik-epik əsəri sayılır.

**25 iyun.** Məhşur ensiklopediyaçı alim, astronom, riyaziyyatçı, filosof, şair **Nəsrəddin Tusi** (1201—1274) Bağdadda vəfat edib. Onun müəllimləri əvvəlcə atası, sonra Bəhmənyar və ibn Sina olublar. Marağa Astronomiya Rəsədxanasını yaradıb. Orada yeni astronomik cihazlar qurub, zəngin kitabxanası olan elmi mərkəz yaradıb. Astronomiyanın inkişafında böyük xidməti olub.

Akademik, millət vəkili **Ziyad Səmədzadənin** ad günüdür. 1940-cı ildə anadan olmuşdur.

Xalq artisti **Sona Hacıyeva** (1907—1989) Şəkidə dünyaya gəlib. Akademik Dram Teatrında işləyib, kinofilimlərdə çəkilib.

**26 iyun.** Xalq artisti, rejissor **Əliheydər Ələkbərov** (1915—1974) anadan olub. Milli Dram Teatrının rejissoru, direktoru vəzifələrində işləyib, pedaqoji fəaliyyət göstərib.

**28 iyun.** Xalq artisti **Barat Şəkinskaya** 1914-cü ildə Şuşada anadan olub. Dram Teatrında işləyib. Şekspir əsərlərinin qəhrəmanlarının bədii obrazlarını məharətlə yaradıb.